**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

***Əlyazma hüququnda***

**ŞƏFƏQ HÜSEYN QIZI ABDULLAYEVA**

# İNNOVASİYALARIN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

**İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2013**



Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Menecment" kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** iqtisad üzrə fəlsəfə doktoru, dosent **Natiq Hüseyn oğlu Qurbanov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **Fərhad Pənah oğlu Rəhmanov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent **Allahyar Niyaz oğlu Muradov**

**Aparıcı təşkilat:** İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

Dissertasiyanın müdafiəsi 21 iyun 2013-cü il saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 20 may 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d., dos. Z.İ.Mustafayeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Qloballaşmanın gücləndiyi və dünya təsərrüfat sisteminin bütövləşdiyi müasir dövrdə cəmiyyətin fəaliyyətində innovasiya sferasının intensiv inkişafı və idarə edilməsi, iqtisadiyyatda elmi-texniki və innovasiya fəaliyyətinin, informasiyaların, intellektual məhsulun xüsusi çəkisinin artımına səbəb olmuşdur. İnnovasiya prosesinin idarə edilməsinin məqbul vasitələrlə təkmilləşdirilməsi və inkişafına nail olmadan davamlı sosial-iqtisadi inkişafın təmin olunması, demək olar ki, mümkün deyildir. Qeyd edək ki, bu məsələnin postsovet ölkələri, o cümlədən Azərbaycan üçün əhəmiyyəti daha böyükdür. Belə ki, Azərbaycanın, onun hər bir vətəndaşının mənafeyi baxımından innovasiya və elmi-texniki potensialının effektiv istifadəsi ölkədə bu potensialın səmərəli realaşdırılması istiqamətində məqsədyönlü, ardıcıl, əsaslandırılmış və sistemli innovasiya siyasətinin aparılmasını və innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsini tələb edir. Akademik Ramiz Mehdiyev "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" adlı məqaləsində göstərdiyi kimi: "Hazırda sosio-mədəni transformasiyanı milli tranzitin iki aspekti-iqtisadi və siyasi modernləşmə müəyyən edir. Bu transformasiyanın əsas mahiyyəti inkişaf dərəcəsi, siyasi və iqtisadi hazırlıq səviyyəsi müxtəlif olan cəmiyyətlərə "üçüncü demokratik dalğa" nın genişlənməsi ilə əlaqədar "idxal edilən" şəffaflıq, yeni idarəetmə stereotipləri, digər davranış və sosiomədəni normalar və arxetiplər şəklində təzahür edir". Aparılan təhlillər göstərir ki, innovasiyaların daha da səmərəli idarə edilməsi üçün hazırda Azərbaycan iqtisadiyyatında əlverişli şərait yaranmışdır.

Qeyd edək ki, iqtisadi islahatları həyata keçirdikcə, bilik və informasiyaların rolunun artması istiqamətində Azərbaycanın dünya birliyinə inteqrasiyası və dünya iqtisadi sisteminə transformasiyası, kapital bazarları və yeni texnologiyalar arasında qarşılıqlı əlaqələrinin güclənməsi Azərbaycan iqtisadiyyatının innovasiya yönümlü inkişaf yoluna keçidini və milli innovasiya sisteminin idarə edilməsinin təkmilləşdirilməsi problemlərinin öyrənilməsini obyektiv zərurətə çevirmişdir.



Bu səbəbdən, dünyanın aparıcı inkişaf etmiş ölkələrin ümumi inkişaf qanunauyğunluqları və meylləri haqqında bilgilər, eləcə də, səhiyyə və sığorta sistemində innovasiyaların idarə edilməsi prosesinin inkişaf xüsusiyyətlərinin öyrənilməsi və müasir vəziyyətinin qiymətləndirilməsi əsasında, ölkəmizin nadir təbii resursları, istehsal və elmi-texniki potensial da daxil olmaqla spesifik xüsusiyyətləri nəzərə alınaraq, bu sahədə mövcud olan problemlərin və çatışmazlıqların aşkarlanması, səhiyyə və söğorta sistemində innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri və imkanlarının müəyyənləşdirilməsi mühüm elmi və praktiki əhəmiyyət kəsb edir.

**Problemin öyrənilməsi səviyyəsi.** Azərbaycanda tədqiq edilən problemin nəzəri əsaslarının hərtərəfli öyrənilməsinə obyektiv olaraq, müstəqilik əldə etdikdən sonra başlanmışdır. Hesab edirik ki, innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi problemləri ilə bağlı ölkəmizdə aparılmış tədqiqatlar böyük elmi və təcrübi əhəmiyyətə malikdir. Fikirimizcə, ölkəmizdə innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi problemlərinin tədqiqinə, onun səmərəliliyinin artırılması və inkişafi Azərbaycan iqtisadçıları tərəfindən də diqqətlə tədqiq olunmaqdadır. Ölkədə innovasiyaların idarə edilməsi prosesinin təkmilləşdirilməsinin müxtəlif istiqamətləri akademik Ə.Ə. Abbasov, prof. Ş.H. Hacıyev, prof. Ə.İ.Bayramov, prof. T.Ə. Quliyev, prof. K.A. Şahbazov, prof. T.Ə. Hüseynov, prof. A.B. Abbasov, prof. Q.N. Manafov, prof. F.P. Rəhmanov, prof. R.M. Cəbiyev, prof. F.H. Qasımov, prof. T.N. Əliyev, i.e.d. Z.M. Nəcəfov, dos. N.H. Qurbanov, dos. A.N. Muradov, dos. N.H. Xudiyev, i.ü.f.d. H.A. Qədirov və başqa alimlər tərəfindən tədqiq edilmiş və öz dəyərli töhvələrini vermişlər.

İnnovasiyaların idarə edilməsi mexanizminin ayrı-ayrı elementləri tarixi köklərə malik olsa da, onun sistemli elmi təhlili ilk dəfə iqtisadçı alimlər Y.Şumpeter, P.Druker, A.Aaker, C.Helbreyt, M.Kastels, N. Kondratyev, A.Ançiskin, D.Lvov, İ.Qurkov, V.Medinski, K.Şapira və b. tərəfindən verilmişdir. Öz dövrlərinə və tədqiqatlarının məqsədlərinə müvafiq olaraq, onlar əsas etibarilə innovasiyanın idarə edilməsinin təşəkkültapma və ilkin inkişaf qanunauyğunluqlarını öyrənmişlər. Qeyd olunan iqtisadçılar müxtəlif nəzəri məktəb və cərəyanlara məxsus olsalar da, onları müasir dünyada innovasiyanın idarə edilməsinə alternativ görməmələri birləşdirirdi. Lakin innovasiyaların

idarə edilməsinin konkret formaları, optimal inkişaf yolları, özünütənzimləmə ilə dövlət müdaxiləsinin tənasübü məsələlərində onlar, müxtəlif mövqelərdən çıxış edirdilər.

Ümumiyyətlə, aparılan tədqiqat işlərinin əhəmiyyətini azaltmadan, qeyd etmək lazımdır ki, səhiyyə və sögorta sistemində innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi problemləri indəyə qədər sistemli elmi yanaşma əsasında kompleks şəkildə xüsusi tədqiqat predmeti kimi araşdırılmamış və kifayət qədər öyrənilməmişdir. Baxılan dissertasiya işi iqtisadi, institusional və sosial tərəfləri olan geniş əhatəli problemdir, bu, boşluğu aradan qaldırmaq məqsədi güdür və onun elmi yeniliyi əhəmiyyətli dərəcədə bununla şərtlənir.

Qeyd olunanlar problemin aktuallığını, onun elmi-nəzəri və praktiki əhəmiyyət kəsb etdiyini göstərməklə yanaşı, tədqiqat mövzusunun seçilməsini, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini də şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycan Respublikasının mövcud inkişaf meylləri nəzərə alınmaqla, səhiyyə və sığota sistemində innovasiyaların idarə edilməsinin elmi əsaslarının formalaşdırılmasından, həmçinin bu sahədə mövcud olan problemləri və imkanları aşkar etməkdən, innovasiyaların idarə edilməsi prosesinin təkminləşdirilməsi istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və məntiqi ardıcıllıqla yerinə yetirilmişdir:

– innovasiyaların idarə edilməsinin öyrənilməsində mövcud nəzəri-metodoloji yanaşmaların ümumi qanunayğunluqlarının araşdırılması;

– innovasiyalı idarəetmə anlayışı və onun xüsusiyyətlərini dəyərləndirməklə iqtisadi məzmununun öyrənilməsi;

– innovasiya və idarəetmənin səmərəliliyi arasındakı dialektik əlaqənin tədqiqi;

– innovasiya biznesinin təşkilati strukturlarının təsnifatlaşdırılması;

– innovasiyalı idarəetmənin səmərəliliyini artırılma zəruriliyi və xüsusiyyətlərinin tədqiqi;

– səhiyyə sektorunda innovasiyaların idarə edilməsinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi;

– milli innovasiya sisteminin yaradılması prioritetlərinin müəyyənləşdirilməsi;



– səhiyyə sektorunda innovasiyaların idarə edilməsinin inkişaf prespektivlərinin araşdırılması;

– sığorta bazarında innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi prioritetlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın predmetini** Azərbaycan Respublikasında innovasiyaların idarə edilməsinin nəzəri, metodoloji və praktiki məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın obyekti** kimi Azərbaycan Respublikasında səhiyyə və sığorta sferaları seçilmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Tədqiqatın nəzəri-metodoloji əsasını innovasiyaların idarə edilməsinə dair nəzəri baxışlar, metodoloji yanaşmalar, tədqiq olunan mövzu üzrə mövcud elmi-təcrübi əsərlər, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclis tərəfindən qəbul edilmiş qanun, qərar və proqramlar, hökumətin qərarları və müvafiq normativ sənədləri təşkil edir.

Tədqiqat işi məntiqi ümumiləşdirmə, müqayisəli və sistemli təhlil, analitik-stasistik və ÜÇİT (SFOT) təhlil kimi tədqiqat metodları əsasında yerinə yetirilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin,Vergilər və Maliyyə Nazirliklərinin materialları və müvafiq elmi-tədqiqat müəssisələrinin statistik icmaları, hesabatları və bülletenləri, eləcə də milli qanunvericilik aktları, İnternet şəbəkəsindən və digər mənbələrdən toplanmış materiallar təşkil etmişdir.

**Dissertasiya işinin elmi yeniliyi.** Müasir inkişaf mərhələsinin xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan Respublikasında innovasiyaların idarə edilməsi məsələləri sistemli şəkildə öyrənilmişdir. Tədqiqatın elmi yeniliyi, hər şeydən əvvəl, onun ilk dəfə olaraq həyata keçirilməsilə xarakterizə oluna bilər. Ümumiyyətlə, dissertasiya işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

– innovasiyalı idarə etmənin səmərəliliyinin artırılması istiqamətləri göstərilmişdir;

– innovasiya prosesləri ilə müəssisələrin bazar mühitinə uyğunlaşması arasındakı əlaqə təhlil olunub qiymətləndirilmişdir;

– investisiya və innovasiyaların spesifik əlaqələri açıqlanmışdır;

– səhiyyə sektorunda innovasiyaların idarə edilməsinin müasir vəziyyəti təhlil olunub qiymətləndirilmişdir;

– səhiyyə sektorunda innovasiyaların idarə edilməsinin inkişaf perspektivləri göstərilmişdir;

– milli innovasiya sisteminin yaradılması prioritetləri müəyyən edilmişdir;

– sığorta bazarında innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi yolları göstərilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiya işində aparılan kompleks sistemli və proqram-məqsədli yanaşmalar və konseptual ümumiləşdirmələr Azərbaycan Respublikasında innovasiyaların idarə edilməsinin mahiyyətini və xarakterini dolğun şəkildə dərk etməyə imkan verir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəaları, alınmış nəticələr və irəli sürülən təkliflər, məntiqi ümumiləşdirmələr Azərbaycan Respublikasında innovasiyaların idarə edilməsi ilə bağlı qərar, proqram, lahiyə, təklif və tövsiyələr hazırlanması prosesində, bu sahədə aparılan elmi-tədqiqat işlərində, həmçinin ali məktəblərdə müvafiq ixtisas kurslarının tədrisində istifadə edilə bilər.

**Aprobasiya və tədqiqatın nəticələrinin tətbiqi.** Tədqiqat işinin əsas müddəaları, əldə olunan nəticələr və irəli sürülən təkliflər beynəlxalq və ölkə səviyyəli konfranslarda, o cümlədən "Azərbaycan Respublikasında Milli innovasiya fəaliyyətinin formalaşmasının bəzi problemləri" mövzusunda Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi Hüquq Tədqiqatlar İnstitutunda "Elmi nailiyyətlərimiz bu gün" elmi-praktiki konfransda (Bakı-2008), "Türkdilli ölkələrdə innovasiya menecmentinin müasir vəziyyətinin təhlili" mövzusunda VIII Türk Dünyası: iqtisadiyyat, elm və mədəniyyət forumunun "İpək Yolu XXI əsrdə" mövzusunda beynəlxalq konfransda (Bakı-2009), "Nəqliyyat sisteminin və informasiya texnologiyaları iqtisadiyyatının qeyri-neft sektoruna təsiri" mövzusunda "Türk dünyasının qloballaşması haqqında" VII elmi-praktik konfransda (Qırğızıstan-2009), "Qlobal maliyyə böhranı şəraitində innovasiyaların rolu" mövzusunda ADİU-da "Qlobal maliyyə böhranı" İqtisadi Təhlükəsizliyin Azərbaycan modeli və dünya təcrübəsi" mövzusunda beynəlxalq elmi-praktiki konfransda (Bakı-2010), "Модели выбора инновационного проекта" mövzusunda II Beynəlxalq elmi-praktiki konfransda (RF Dərbənd - 2010) və digər elmi-nəzəri konfranslarda məruzə edilmiş və "Креативная Экономика" (Всероссийский ежемесячный научно-практический журнал. Москва, №6/ 2012) dövri nəşrlərdə dərc olunmuşdur.



Tədqiqatın nəticəsi olaraq "İnnovasiyaların tətbiqinin idarə edilməsinin səmərələşdirilməsinə" aid əsas müddəalar və əməli təkliflər BKR İnternational Auditor şirkətinin Azərbaycan Nümayəndəliyinin müvafiq bölmələri tərəfindən innovasiyaların tətbiqinin idarə olunmasının səmərələşdirilməsində (26.12.2011-ci il tarixli arayış) və Azərbaycan Dövlət Tibb Universitetinin "İqtisadi nəzəriyyə" fənninin tibbi sığorta, səhiyyənin idarə eilməsi və təşkili, səhiyyə sektorunun maddi-texnki bazasının möhkəmləndirilməsi, səhiyyədə iqtisadi islahatları mövzularının tədrisində istifadə olunmaq üçün qəbul edilmişdir (04.05.2012-ci il tarixli arayış).

**Tədqiqat nəticəsində dərc edilmiş məqalələr.** Dissertasiya işinin mövzusu üzrə ümumi həcmi 6.9 ç.v. olan 10 məqalə, 3 tezis, o cümlədən xaricdə 1 elmi məqalə dərc edilmişdir.

**Dissertasiya işinin həcmi və quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla, kompyuterdə yığılmış 151 səhifə həcmindədir. Burada 21 cədvəl, 11 sxem və 3 diaqram verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında Azərbaycan, türk, rus və ingilis dillərində olan 115 ədəbiyyat mənbəyi və internet səhifəsi göstərilmişdir.

Tədqiqatin strukturu aşağıdakı kimidir:

**GIRİŞ**

**I FƏSİL. İnnovasiyaların idarə edilməsi probleminin nəzəri-metodoloji əsasları**

1.1. İnnovasiyalar davamlı iqtisadi inkişafın mühüm şərtidir

1.2. İnnovasiyalı idarə etmə anlayışı və onun xüsusiyyətləri

1.3. İnnovasiya və idarə edilmənin səmərəliyi arasında dialektika

**II FƏSİL. Səhiyyə sferasında innovasiyaların idarə edilməsinin müasir vəziyyəti**

2.1. İnnovasiya biznesinin təşkilati strukturunun təsnifləşdirilməsi

2.2. İnnovasiyalı idarə etmənin səmərəliliyinin artırılma zəruriliyi və xüsusiyyətləri

2.3. Səhiyyə sektorunda innovasiyaların idarə edilməsinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi

**III FƏSİL. İqtisadiyyatın səhiyyə və siğorta sferalarında innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi istiqamətlri**
3.1. Milli innovasiya sisteminin yaradılması prioritetləri
3.2. Səhiyyə sektorunda innovasiyaların idarə edilməsinin inkişaf prespektivləri
3.3. Sığorta bazarında innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri
**NƏTİCƏ**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

## TƏDQİQATIN MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS MƏZMUNU VƏ NƏTİCƏLƏRİ

**1. İnnovasiyalar davamlı iqtisadi inkişafın mühüm şərtidir.**

Qeyd edilir ki, hazırda innovasiya fəaliyyəti sahəsində ümumi qəbul olunmuş terminologiya yoxdur. Tədqiqat obyektindən və predmetindən asılı olaraq, iqtisadi ədəbiyyatda innovasiyanı proses, sistem, dəyişiklik və nəticə kimi nəzərdən keçirirlər. İnnovasiya anlayışını elmi dövriyyəyə ilk dəfə Avstriya iqtisadçısı İ.Şumpeter daxil etmişdir. O, özünün «İqtisadi inkişaf nəzəriyyəsi» əsərində innovasiyaya texniki dəyişikliyin iqtisadi təsiri kimi baxmış, istehsal funksiyası çərçivəsində innovasiya sahibkarlığının mahiyyətini tapmağa cəhd etmiş və innovasiya prosesləri nəzəriyyəsinin əsaslarını tədqiq etmişdir. İnnovasiyaya texnologiyanın və idarəetmənin dəyişməsi kimi baxan alim, innovasiya prosesində sahibkarın rolunu qeyd etmiş və onu ixtira ilə yenilik arasında əlaqələndirici adlandırmışdır.

İnnovasiya - praktiki fəaliyyətdə istifadə olunan yeni və ya mütərəqqi texnoloji proses, bazarda realizə edilən yeni və ya təkmilləşdirilmiş məhsuldur.

İqtisadi ədəbiyyatda bəzən "yenilik" və "innovasiya" anlayışları eyniləşdirilir, bəzən bu anlayışlar bir-birinin sinonimi kimi işlədilir. Əslində isə yenilik istənilən fəaliyyət sferasında istehsalın səmərəliliyinin yüksəldilməsinə dair fundamental, tətbiqi tədqiqatların, işləmələrin və yaxud təcrübi işlərin nəticəsi olduğu halda, innovasiya iqtisadi, sosial, ekoloji, elmi-texniki və s. növ səmərənin alınması məqsədilə tətbiq olunan yeniliklərin son nəticəsi kimi çıxış edir. Prinsip etibarilə, innovasiya dedikdə,



ixtira, kəşf, patent, əmtəə nişanı, səmərələşdirici təklif kimi tətbiq olunan yeniliklərdən alınan nəticələrin məcmusu başa düşülür.

Dissertasiya işində innovasiyanın dərk edilməsinə dair müxtəlif yanaşmalar kompleks şəkildə təhlil edilmiş və belə bir qənaətə gəlinmişdir ki, innovasiyanın məxsusi məzmunu dəyişikliklərdən ibarətdir, innovasiya fəaliyyətinin və innovasiya menecmentinin əsas funksiyası dəyişiklikləri optimal idarə etməkdir.

İşdə qeyd olunur ki, innovasiya biznesi müxtəlif sahələrdə yeniliklərin, yeni qaydaların yaradılması və təcrübədə istifadə edilməsi prosesidir. Sənaye müəssisələrinin elmi-texniki tərəqqinin son nailiyyətləri əsasında modernləşdirilməsi, mütərəqqi texnologiyaların tətbiqi, bazarda amansız rəqabətə davam gətirə bilən yüksək keyfiyyətli məhsul istehsalının artırılması innovasiya biznesinin inkişafından daha çox asılıdır.

Fikrimizcə, elmi-texniki və texnoloji tərəqqi sahəsindəki perspektivlərin tədqiqi zamanı əldə edilmiş nəticələr bazarda müəssisələrin ümumi strategiyasının işlənib hazırlanması üçün həlledici (köhnəlmiş texnologiya ilə çıxmaq lazım olan) anın müəyyən olunmasından asılıdır.

Dissertasiyada həmçinin innovasiya prosesinin mərhələləri və istiqamətləri təhlil edilir. Göstərilir ki, innovasiya proseslərində başlıca diqqət innovasiya strategiyasının və tədbirlərinin yerinə yetirilməsinə, onun reallaşdırılması istiqamətlərinə ayrılmalıdır.

Tədqiqat işində qeyd edilir ki, innovasiya strategiyanın ümumi məqsədləri müəyyənləşdirildikdən sonra innovasiyanın həyat tsiklinə diqqət yetirilməlidir. İnnovasiyanın həyat tsikli yeni ideyanın meydana gəlməsindən başlayaraq onun həyata keçirilməsinə və istehsal edilmiş məhsulun bazarda özünü təsdiq edilməsinə kimi altı fazaya ayrılır. Bura müəssisə və innovasiya strategiyası; ideya axtarışı və onun qiymətləndirilməsi; məhsulyönümlü qərarlar; elmi-tədqiqat və hazırlıq işləri, texnoloji transfer; istehsalın mənimsənilməsi; bazara yeridilmə daxildir.

**2. İnnovasiya və idarə edilmənin səmərəliyi arasında dialektika.**

İnnovasiya menecmenti kompaniyanı idarəetmənin, rəhbərliyin ali səviyyəsində həyata keçirilən strateci idarəetmə istiqamətlərindən biridir, onun məqsədi aşağıdakı sahələrdə firmaların elmi-texniki və istehsal fəaliyyətinin əsas istiqamətlərini müəyyən etməkdir: yeni məhsulların işlənib hazırlanması və tətbiq edilməsi (innovasiya fəaliyyəti); buraxılan məhsulun modernləşdirilməsi və təkmilləşdirilməsi; ənənəvi məhsul növləri istehsalının daha da inkişaf etdirilməsi; köhnəlmiş məhsulların istehsalatdan çıxarılmasıdır.

İnnovasiya menecmentində əsas diqqət strategiyanın işlənib hazırlanmasına və onun reallaşdırılmasına istiqamətlənmiş tədbirlərə verilir. Yeni növ məhsulların işlənib hazırlanması və buraxılması firmanın strategiyasının daha üstün istiqamətləri olur.

Dissertasiya işində innovasiya prosesinin əsas mərhələlərini - daxil olmuş ideyaların sistemləşdirilməsi; aşkar edilmiş ideyaların seçilməsi və yeni məhsul ideyasının işlənib hazırlanması; yeni məhsulun iqtisadi effektivliyinin təhlili - marketinq proqramının işlənib hazırlanması; yeni məhsul yaradılması; bazarda testləşdirmə; və məhsul üzrə marketinq proqramı əsasında yeni məmulatın istehsalatda (kütləvi, seriyalı) tətbiqi haqqında qərar qəbul edilməsi geniş təhlil edir və hesab edir ki, idarəetmə özündə strateji marketinq, planlaşdırma, təşkiletmə, nəzarət, motivasiya, tənzimləmə və sair fəaliyyətlərin kəsilməz əlaqələrini birləşdirir, bunun əsasında da innovasiya menecmentinin funksiyaları müəyyən olunur.

**3. İnnovasiya biznesinin təşkilati strukturunun təsnifləşdirilməsi.**

Araşdırmalarımız göstərir ki, innovasiya fəaliyyətindəki risklərin idarəedilməsi innovasiya nəticələrindəki qeyri-müəyyənliyi aradan qaldırmağa və innovasiya məqsədlərinə nail olmaq üçün yeni qaydaların həyata keçirilməsinin faydalılığını gücləndirməyə şərait yaradan praktiki tədbirlər toplusudur.

İnnovasiya fəaliyyətində risklərin idarəedilməsi məsələsi innovasiyalı inkişafın strateji məqsədlərinin həyata keçirilməsini təmin edir və həmin məqsədlərə aşağıdakılar aiddir:

- innvovasiya proseslərinin nəticələrinə və dinamikasına təsir edən neqativ amillərin yaranmasının proqnozlaşdırılması;
- innvovasiya fəaliyyətinə və innovasiyaların tətbiqi nəticələrinə neqativ amillərin təsirinin qiymətləndirilməsi;
- innovasiya layihələrindəki riskin azaldılması üzrə müxtəlif variantların hazırlanması;
- innovasiya fəaliyyətindəki riskin idarəedilməsi sisteminin yaradılması.

Dissertasiya işində müəssisələrə innovasiya tətbiq edərkən meydana çıxan risklərin sığortalanmasının bir neçə istiqamətinə baxılır. Belə ki, istehsalata yeni texnika və texnologiyanın tətbiq edilməsi ilə əlaqədar olan riskli sığortalanma iki istiqamətə ayrılır: Birincisi, texnikanın, qurğunun, texnoloji xəttin və başqa hadisələrdə onların sıradan çıxmasının, işin pozulmasının, məhvinin sığortalanmasıdır. Məlum hadisədə sığortalanmış obyektlərin birbaşa itkilərdən qorunmasına irəlicədən baxılır. İkincisi, texniki və texnoloji yeniliklərin tətbiqindən əmələ gələn və ya onların dağılmasından, dayanmasından yaranan arzuedilməz nəticələrin sığortalanmasıdır. Nəticə etibarilə burada əlavə xərclər və əldə olunmayan gəlirlər formasında itkilər vardır. Hər iki sığortalar müstəqildir. Lakin, eyni vaxtda tətbiq olunana qədər sübuta yetirilir. Fikrimizcə, sığortalanma obyektinə sınaqdan çıxmış və sınaq buraxılışı zamanı işdə yararlı olan maşınlar, texniki və texnoloji qurğular daxildir. Qaydaya görə yüksək qiymətli obyektlərin sığortalanması üçün onların texniki xarakteri göstərilməklə tam siyahısı tərtib edilməlidir. Maşınların (qurğunun) özü sığortalandıqda isə onların hər birinin ayrılıqda sığorta məbləği göstərilməlidir.



**4. İnnovasiyalı idarə etmənin səmərəliliyinin artırılma zəruriliyi və xüsusiyyətləri**

İnnovasiya layihələrinin çətinliyindən asılı olaraq ilk mərhələdə innovasiya prosesinin həll olunması kifayət qədər müxtəlif ola bilər. Qismən böyük innovasiya layihələrinin işləmələrində və mənimsənilməsində elmi-tədqiqat işlərinin sistemli inteqrasiya nəticələri həyata keçirilir, müxtəlif vaxtlarda digər kollektivlər tərəfindən həyata keçirilən, ayrı sistemaltı kimi işi dondurmaq və davam etdirmək, ümumilikdə texnologiyaların hamısı, bu mərhələdə işin icraçıları ali təhsil ocağının yaradıcı alim kollektivi, mühəndis-texniki işçiləri hesab olunur.

2005-2011-ci illərdə Azərbaycanda texnoloji innovasiyalara çəkilən xərclər stabil olmuşdur. Yəni 2005-ci ildə 53273 min manat xərclə bu rəqəm 31589 min manat arasında artmış və azalmışdır.

Cədvəl 1

**2005-2011-ci illərdə Azərbaycanda innovasiyaların tiplərinə görə texnoloji innovasiyalara çəkilən xərclər, (min manat)**

| | 2005 | 2006 | 2007 | 2009 | 2011 |
|---|---|---|---|---|---|
| Bütün sənaye | 53273 | 43875 | 49620 | 4618 | 31589 |
| Mədən çixarma sənayesi | 43892 | 245,0 | 97,7 | 397,5 | 692,9 |
| Emal sənayesi | 8573 | 1085 | 49493 | 4102 | 29319 |
| Elektrik enercisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı | 808,5 | 42545 | 29,8 | 119,1 | - |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | - | - | - | - | 1577 |

Mənbə: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistikası Komitəsinin müvafiq illər üzrə məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Həmçinin, maliyyə böhranının ilk təsirindən sonra ölkədə texnoloji innovasiya xərcləri 8 dəfə artmışdır. Beləliklə, Azərbaycanın milli innovasiya sisteminin qlobal maliyyə böhranına uğurla mübarizə aparması ölkə iqtisadiyyatının təməlinin elmi əsaslara baglanmasını əks etdirir.

2005-2011-ci illərdə müəssisələrin öz vəsaiti hesabına texnoloji innovasiya xərclər böyük xüsusi çəkiyə malikdir. 2011-ci ildə müəssələrin oz vəsaiti hesabına texnoloji innovasiyalara çəkdiyi xərclər 72% dən çoxdur. Qeyd edilməlidir ki, 2005-ci ildə texnoloji innovasiyalara çəkilən xərclərin 81%-ni dövlət büdcəsindən ayrılan məbləğ təşkil edir. Hal-hazırda dövlət büdcəsindən texnoloji innovasiyalara çəkilən xərclər 18%-dən ibarətdir (2011-ci il). Xüsusən qeyd edlməlidir ki, 2005-ci ildə texnoloji innovasiyalara cəkilən xərclərin böyük bir hissəsi mədən cixarıma sənatesinə yönəldilirdisə, 2011-ci-ildə emal sənayesinə yönəldilən texnoloji innovasiyaların xüsusi çəkisi 90%-dən artıq olmuşdur. Qətiyyətlə deyə bilərik ki, qeyri-neft sektorunda texnoloji innovasiyalar xərcləri sürətlə artmaqdadir. 2005-ci ildə emal sənayesində texnoloji innovasiya xərcləri 8573 min manat təşkil etmişdirsə, 2011-ci ildə bu rəqəm 3,2 dəfə artaraq 29319 min manat olmuşdur. Xüsusən də müəssisələrin öz vəsaiti hesabına texnoloji innovasiya xərcləri 2011-ci ildə 2005-ci ildə nisbətin 10 dəfə artaraq 20726 min manat olmuşdur.

İnnovasiyaların tətbiqinin və idarəolunmasının həyata keçirilməsində əldə edilən nailiyyətlərlə yanaşı ölkə müəssisələrində innovasiyalara mane olan amillər də mövcuddur. 2008-2011-ci illərdə innovasiyalara mane olan amilləri üç qrupa ayırmaq olar: iqtisadi amillər; istehsal amilləri; digər amillər.

Tədqiqat işində qeyd edilir ki, müəssisələrin innovasiya fəaliyyətinə mane olan istehsal amillərinə: müəssisənin innovasiya potensiallının aşağı olması; ixtisasli işcilərin çatışmaması; yeni texnologiyalar haqqında informasiya çatışmamazlığı; müəssisələr tərəfindən yeniliklərin qəbul edilməsi; satiş bazarları haqqında informasiyanın çatışmamazlığı; müəssisələr və elmi təşkilatlar ilə kooperasiya əlaqələrinin olmaması aiddir.

Azərbaycan müəssisələrində innovasiyalara mane olan digər səbəblərə:

- daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması;



- innovasiya fəaliyyətini təmzimləyən və stimullaşdıran hüquqi sənədin olmaması;
- innovasiya prosesi müddətinin qeyri-müəyyən olması göstərilə bilər.

**5. Səhiyyə sektorunda innovasiya fəaliyyəti sahəsində rəqabət mühitinin sağlamlaşdırılması**

Dissertasiya işində səhiyyə sahəsində investisiya mühitini və innovasiya sahibkarlıq fəaliyyətini tənzimləyən əsas qanunlar – "İnvestisaiya Fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Özəl Tibb Fəaliyyəti haqqında", "Tibbi Sığorta haqqında", "Əczaçılıq Fəaliyyəti haqqında", "Dərman Vasitələri haqqında", "Əhalinin Sağlamlığının Qorunması haqqında" Azərbaycan Respublikasının Qanunları və "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar", o cümlədən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən 3 növ lisenziyanın verilməsi qaydaları geniş təhlil edilir və analitik ümumiləşdirmələr aparır.

Qeyd edək ki, hazırda hökumətin bir sıra istiqamətlərdə qəbul etdiyi siyasi qərarlar ölkədə səhiyyə sektorunun inkişafını ciddi şəkildə stimullaşdırır. Xüsusilə aşağıdakılar qeyd edilməlidir:

- əhalinin sağlamlığının yaxşılaşdırılması ilə bağlı məqsədli/ünvanlı səhiyyə proqramlarının qəbul edilməsi;
- aztəminatlı təbəqələrin pulsuz səhiyyə xidmətlərindən istifadəsi imkanlarının yaxşılaşdırılması üzrə siyasi iradənin olması;
- əhalinin səhiyyə xidmətlərinə bərabər çıxışının təmin edilməsi üçün mövcud səhiyyə müəssisələrinin təmiri və yenilərinin tikintisi, xüsusilə regionlarda səhiyyə infrastrukturunun gücləndirilməsi;
- səhiyyə sisteminin səmərəliliyini artırmaq məqsədilə tibbi sığorta sisteminin yaradılması ilə bağlı dövlət dəstəyinin verilməsi.
- son dövrlər bir sıra istiqamətlərdə dövlət standartları da təkmilləşdirilmiş və bu standartlara əməl edilməsinə nəzarət sərtləşdirilmişdir.

Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən Azərbaycanda 2010-cu ildə 759 xəstəxana və 1692 ambulatoriya-poliklinika müəssisəsi fəaliyyət göstərmişdir. 2010-cu il ərzində isə 104 yeni ambulatoriya-poliklinika müəssisəsi və 8 xəstəxana yaradılmışdır. Yeni yaradılan tibb müəssisələrinin əksəriyyəti özəl sektorun payına düşür. Ümumilikdə, Azərbaycanda 2010-cu ildə tibbi xidmət göstərən müəssisələrdə 32.2 min

həkim və 62.8 min orta tibbi işçisi xidmət göstərmiş, bu göstərici əhalının hər 10000 nəfərinə müvafiq olaraq 37.8 və 73.8 təşkil etmişdir. 2006-cı ilin sonu ilə müqayisədə birinci göstərici cüzi artmış, ikinci göstərici isə cüzi aşağı düşmüşdür. Hazırda əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı Avropa ölkələrində olan orta göstəricidən bir qədər artıqdır. Qeyd etmək lazımdır ki, ilkin tibbi-sanitariya yardımı göstərən həkimlər bütün həkimlərin sayının cəmi 20-25%-ni təşkil edir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə 2 dəfə aşağıdır.

Hazırda Azərbaycanda əhalinin hər 10000 nəfərinə 80 çarpayı düşür. Bu, Avropa ölkələrində mövcud olan göstəricidən də xeyli artıqdır. Bunun da ən mühüm səbəbi, sovet dövründə vəsaitlərin yataq sayına görə paylanması ilə əlaqədardır. Digər bir səbəb də sovet səhiyyə sistemində ilkin tibbi xidmətlərin zəif olması ilə bağlıdır.

2011-ci ildə dövlət büdcəsindən səhiyyə xərclərinin maliyyələşdirilməsinə 493,4 mln. manat vəsait ayrılmışdır ki, bu da büdcə xərclərində 3,2%-i, sosial-mədəni tədbirlərə ayrılan vəsaitlərin isə 13,9%-i deməkdir. Əvvəlki ilə nisbətən bu vəsaitlərin artım tempi də fərqli olmuşdur.

Cədvəl 2

**Dövlət büdcəsindən səhiyyəyə ayrılan xərclər, manatla**

| | Xərclərin istiqamətləri | İllər | | | |
|---|---|---|---|---|---|
| | | **2008** | **2009** | **2010** | **2011** |
| | **Səhiyyə xərcləri** | **346227624** | **402366147** | **429161320** | **493425162** |
| 1 | Poliklinikalar və ambulatoriyalar | 57663191 | 62368759 | 75860231 | 83978336 |
| 2 | Xəstəxanalar | 194007034 | 227939319 | 234738059 | 264978488 |
| 3 | Səhiyyə sahəsində digər xidmətlər | 7749611 | 7985803 | 4426950 | 4318858 |
| 4 | Səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 2370942 | 2576302 | 2960195 | 3119657 |
| 5 | Səhiyyə sahəsinə aid edilən digər xidmətlər | 84436846 | 101495964 | 111175885 | 137029823 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Büdcəsi 2010-2012

2008-ci ilə nisbətən dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin həcmi 1,4 dəfə, yəni 147,2 mln.manat həcmində artmışdır. Ümumilikdə, 2004-2011-ci illər ərzində səhiyyəyə ayrılan vəsaitlərin həcmi 8,1 dəfə (521,6 mln.manat) artmışdır.

2011-ci ildə dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin strukturunda xərclərin 17%-nin 84 mln.manata yaxın) poliklinikalar və ambulatorpiyalar, 53,7%-nin (265 mln.manata yaxın) xəstəxanalar, 0,9%-nin (4,3 mln.manat) səhiyyə sahəsində digər xidmətlərin, 0,6%-nin (3,2 mln.manat) səhiyyə sahəsində tətbiqiq tədqiqatldarın, 27,8%-nin (137,0 mln.manat) səhiyyə sahəsinə aid edilən digər xidmətlərin maliyyələşməsi məqsədləri üçün ayrılması nəzərdə tutulmuşdur. 2011-ci ildə səhiyyə üçün ayrılan xərc vəsaitlərinin 119,3 milyon manatı məqsədli proqram və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir. Belə ki,:

- icbari tibbi sığortanın tətbiqinə 30,1 milyon manat;
- xroniki böyrək çatışmazlığı üzrə tədbirlərə 21,7 milyon manat;
- hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə tədbirlərə 16 milyon manat;
- ankoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatına 14,4 milyon manat;
- «şəkərli diabet üzrə dövlət proqramı»na 11,7 milyon manat;
- yolxucu xəstəliklərin immunoprofilaktikasına dair tədbirlərə 4,4 milyon manat;
- Azərbaycan Respublikasına HİV/AİDS-in qarşısının alınması və onunla mübarizəyə 3 milyon manat;
- səhiyyə müəssisələrinin yenidən qurulması və əsaslı təmirinə 3 milyon manat;
- ana və uşaqların sağlamlığının qorunması üzrə tədbirlərə 2 milyon manat;
- qanın və qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafina dair tədbirlərə 1,3 milyon manat və digər tədbirələrə vəsait nəzərdə tutulmuşdur.

İlk dəfə olaraq 2011-ci ilin dövlət büdcəsində məqsədli şəkildə vərəmlə mübarizə tədbirlərinə 3 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Səhiyyə xidmətlərinin keyfiyyətinin aşağı düşməsinin əsas səbəblərindən biri də təhsil sistemində problemlərin mövcudluğu ilə əlaqədardır. Belə ki, müstəqilliyin əldə edilməsindən sonra, səhiyyə sektorunda olduğu kimi, təhsil sektorunda da geriləmə müşahidə edilmişdir. Maliyyə çatışmazlığı, aşağı əmək haqları və köhnəlmiş maddi-texniki baza təhsilin keyfiyyətinə mənfi təsir etmişdir. Bu təsir tibb ixtisasları üzrə fəaliyyət göstərən ali, orta ixtisas və yenidən hazırlıq təhsili müəssisələrindən də yan keçməmişdir.

**6. Milli innovasiya sisteminin yaradılması prioritetləri.**

Dissertasiyada qeyd edilir ki, innovasiya proseslərinin sürətləndirilməsi və bu yolla müəssisələrin bazar mühitinə uyğunlaşdırılması sahəsində dövlət mühüm rol oynaya bilər. İnkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi nəticəsində məlum olur ki, bunun üçün ölkəmizdə «Milli innovasiya siyasəti» (MİS) konsepsiyası hazırlanmalıdır. Bu cür konsepsiyalar bir çox ölkələrdə müxtəlif variantlarda və müxtəlif aylarda həyata keçirilməkdədir. MİS-i şərait yaratmalıdır ki, bu amillər müəssisələrin bazar mühitinə uyğunlaşmasına müsbət təsir göstərsin.




Sxem 1. **Milli innovasiya sisteminin tərkibi, quruluşu və müəssisələrin bazar mühitinə uyğunlaşdırılmasında onların rolu**

Milli innovasiya siyasətinin ana xəttində insan fəaliyyətinin bütün sahələrində formalaşmış yeniləşmənin səmərəliliyi durur. İnnovasiyanı səmərəli edən isə sahibkarlar ordusudur. Məhz buna görə də MİS-də sahibkarların yetişdirilməsi, sağlamlaşdırılması, istiqamətləndirilməsi, stimullaşdırılması, cəzalandırılması xüsusi yer tutmalıdır. Elmi əsaslar üzərində yaradılmış innovasiya yönlü sahibkar oldusu MİS-nin səmərəliliyinin generatoruna çevrilə bilər. Bu o deməkdir ki, sağlam düşüncəyə malik sahibkarlar MİS-nin formalaşmasında və həyata keçirilməsində başlıca rol oynamalıdırlar. Əslində sahibkarların belə fəallığı onlarda hər hansı bir dövrdə meydana çıxan bazar mühitinə uyğunlaşmaq qabiliyyəti yaradır. Dövlət bu cür prosesləri idarə edərkən sahibkarlara elə istiqamət verməlidir ki, onlar dərk etsinlər ki, bazar mühitinə uyğunlaşmağın ən səmərəli və mötəbər yolu innovasiya yoludur.



İnnovasiya infrastrukturunun inkişafının prioritet istiqamətləri sırasına aşağıdakıları aid etmək olar:

- texnologiyanın transferi mərkəzlərinin, biznes inkubatorların, ixtisaslaşdırılmış texnoparkların yaradılması və inkişafı
- texnologiyanın transferi şəbəkəsinin inkişafı, texnologiyanın transferinin yenidən yaradılmış mərkəzlərinin ümumrespublika və transmilli şəbəkəsinə daxil edilməsi;
- innovasiya layihələrinin vençur maliyyələşdirilməsi mexanizmlərinin işlənib hazırlanması və sisteminin yaradılması;
- texniki-tətbiqi zona modeli üzrə elmi və innovasiya potensialının yüksək təmərküzləşməsi ilə ərazinin kompleks inkişafı;
- sona çatmış tədqiqatlar, işləmələr və texnologiyalar üzrə ərazi məlumat bazalarına daxil edilən innovasiya fəaliyyətinin vahid informasiya məkanının yaradılması;
- tədqiqat və işləmələr nəticəsində tələbatlar haqqında məlumatların toplanması, qarşılıqlı faydalı olan iqtisadi əlaqələrin informasiya dəstəyi, innovasiya fəaliyyətinin inkişafı üzrə vahid informasiya sisteminin yaradılması.

**7. Sığorta bazarında innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri**

İnnovasiyaların tətbiqinin kəmiyyət ifadəsi öz əksini müxtəlif metodlarla hesablanmış, fərqli, ancaq bir-birinə yaxın məzmuna sahib göstəricilərdə tapır. Ümumi bir şəkildə baxsaq, daha müntəzəm istifadə olunan göstəricilərdən təmərküzləşmə əmsalını (concentration ratio), Horfindal-Hirşman indeksini (Herfindahl-Hirshman Index), bazar paylarının dispersiyası və loqarifmasını (variance of the logarithms of firm size), entropiya indeksini (entropy index) və Holl-Taydman indeksini (İndex Hall-Taidman) göstərmək mümkündür. Araşdırma çərçivəsində

biz, yalnız Herfindal-Hirşman indeksindən istifadə edəcəyik. Sözügedən indeks bazarın müvafiq sahəsində fəaliyyət göstərən bütün firmaları əhatə etməyə və onların bazar paylarını nisbi şəkildə hesablamağa imkanı verir. Herfindal-Hirşman indeksi sahibkarlıq subyektlərinin bazar paylarının faiz ifadəsində kvadratların cəmi şəklində hesablanır. İndeksin dəyəri 0-10000 arasında dəyişir. İndeksin qiyməti ilə rəqabət tərs mütənasib əlaqədədir, yəni indeksin qiyməti yüksəldikcə, rəqabət azalır və inhisarlaşma yüksəlir.

$$H = \sum_{i=1}^{N} S_i^2$$

Si - şirkətin faizlə bazar payıdır; N - bazardakı şirkətlərin sayıdır.

Azərbaycanda mobil (GSM) operator bazarında üç mobil operator fəaliyyət göstərir: Azercell, Bakcell və Azərfon (rəsmi brendi Nar Mobile). "Azercell Telecom" 19 yanvar 1996-cı ildə yaradılıb. Təsisçilər qismində Türkcell İletişim Hizmetleri A.S. və Azərbaycan Respublikası Rabitə Nazirliyi çıxış etmişdir. Bakcell isə 1994-cü ilin mart ayında İsrail şirkəti GTİB ilə Azərbaycan Respublikası Rabitə Nazirliyi tərəfindən birgə müəssisə olaraq yaradılmışdır. 2003-cü ilin dekabrında şirkətin özəlləşməsi prosesi başa çatmışdır, 2004-cü ilin yanvar ayından başlayaraq Bakcell 100% şəxsi kapitala malik bir şirkət kimi fəaliyyət göstərməkdədir. Azərfon şirkəti kommersiya fəaliyyətinə 2007-ci ilin mart ayında Nar Mobile ticarət nişanı ilə başlamışdır. Şirkətin təsisçiləri olaraq Aztelekom, alman şirkəti Siemens və iki Britaniya şirkəti çıxış etmişdir.

İşdə Azərbaycanın mobil (GSM) rabitə bazarında pay bölgüsü şirkətin abunəçilərinin sayına əsasən hesablanmışdır. Göstərilmiş pay bölgüsünə əsasən, Herfindal-Hirşman indeksini hesablayaq.

$$HHI = 62^2 + 23^2 + 15^2 = 4598$$

Herfindal-Hirşman indeksi 4598-dir. İndeksimizin bu göstəricisində bazarımız "çox güclü təmərküzləşmiş" bazar olaraq səciyyələndirilir. Qeyd edək ki, dünya təcrübəsində də rabitə, enerji və bank sektoru adətən oliqopolist sektor olaraq fəaliyyət göstərir. Bu, ilk növbədə bazarın spesifik xüsusiyyətindən irəli gəlirsə, digər tərəfdən bu sektorlarda dövlətin strateji marağından və dövlət siyasətindən qaynaqlanır.



Cədvəl 3

**Azərbaycanın mobil (CSM) rabitə bazarında abunəçi sayına əsasən pay bölgüsü (noyabr ayına qədər)**

| Şirkətin adı | Abunəçi sayı | Bazar payı |
|---|---|---|
| 1. Azercell | 3,5 mln. | 62% |
| 2. Bakcell | 1,3 mln. | 23% |
| 3. Nar Mobile | 0,85 mln. | 15% |

Mənbə: Cədvəl müəllifin hesablamaları əsasında tərtib edilmişdir.

Herfindal-Hirşman indeksinin (və ümumiyyətlə bu sahədə digər indekslərin) bizə tam olaraq bazardakı mənzərəni təsvir etdiyini söyləmək də sadəlövhlük olardı. İndeks bazar sahəsində təmərküzləşməni hesablasa da, sahənin xüsusiyyətlərini nəzərə almadan hər hansı bir nəticə çıxarmaq düzgün olmazdı. Məsələn: fərz edək ki, bank sektorunda aralarında bazar payı 15% olmaqla 6 əsas firrna mövcuddur. İlk baxışdan qarşımızda qeyri-inhisarçı (Herfindal indeksi 1400-1450) bir bazar strukturunun mövcud olduğunu görürük. Ancaq digər tərəfdən, əgər bir bank yalnız kredit əməliyyatlarının 90%-ni, digər bir bank depozit qoyuluşlarının 90%-ni həyata keçirirsə, o zaman bazarın rəqabətli bazar olduğu haqqındakı iddialarımız doğru olmazdı.

Tədqiqat işində Azərbaycanın sığorta bazarında innovasiya muhitinin təhlilini həyata keçirməyimizin ilk və əsas səbəbi, əlbəttə, bazar haqqında dəqiq məlumatların (iştirakçıların dəqiq sayı, maliyyə vəziyyəti və s.) mövcudluğu və əlçatan olmasıdır.

Azərbaycanın sığorta bazarı zəif inkişaf etsə də, son dövrlər bu sahədə bir canlanma müşahidə olunur. İlk növbədə ölkədə kredit sisteminin inkişafı ilə bağlıdır. Vətəndaşlar artıq daşınmaz əmlakı, avtomobili, məişət texnikasını və hətta mebeli kreditlə almağa üstünlük verirlər. Kredit verən bank isə vətəndaşın qarşısında aldığı əmlakı sığortalamağı şərt kimi qoyur. Bunun nəticəsidir ki, son iki ildə sığorta şirkətlərinin gəlirləri artmağa başlayıb. Məsələn, 2009-cu ildə Azərbaycandakı sığorta şirkətləri ümumilikdə 147,2 milyon manat sığorta haqqı toplayıb ki, bu da 2008-cı illə müqayisədə 66,6 faiz çox olub. 2010-cu ilin birinci rübündə isə Azərbaycanda sığorta haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 37,2 faiz artaraq, 51, 60 milyon manat təşkil edib. Maraqlı faktdır ki, bu ilin ilk kvartalında həyat sığortası 400 faiz artıb. Bu isə insanlarda sığortaya inamın qayıtmasını təsdiqləyir.

Şirkətin sığorta yığımlarının strukturunu gözdən keçirdikdə görə bilərik ki, onun 2010-cu ilin yanvar-sentyabr aylarında topladığı sığorta haqlarının həcmi 7,261 mln manat təşkil edib ki, bunun da 2,590 mln manatı «Yüklərin sığortası», 2,357 mln manatı «Əmlakın yanğından və digər risklərdən sığortası», 1,017 mln manatı «Avtonəqliyyat vasitələrinin sığortası» və 0,649 mln manatı «Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası» növlərinin payına düşür.

İşdə qeyd olunur ki, «Azərsığorta»nın sığorta yığımının əsas hissəsini, təqribən 70%-ə qədərini iki sığorta növü üzrə yığımlar təşkil edir: "Yüklərin sığortası" və "Əmlakın yanğından və digər risklərdən qorunması". Bazarda illərdir özünə yer tutmuş sığorta şirkətlərindən fərqli olaraq, bazara yenicə daxil olmuş «Azərsığorta» göstərilən sığorta növü üzrə sığorta yığımlarına görə 2008-ci ilin altı ayının nəticəsinə əsasən bu bazarın 40%-nə sahibdir. Beləliklə, cədvəl 3.5.- a əsasən, müvafiq sığorta bazarında Herfindal-Hirşman indeksini hesablasaq, HHİ=2207,7 alarıq ki, bu da bazarımızın "çox yüksək təmərküzləşmiş" bazar olduğunu göstərir.

"AZAL Sığorta", "Paşa Sığorta" və "Azərsığorta" hallarında paralel oxşarlıqlar aparan zaman bazar üstünlüyünün əldə edilməsi üsullarının fərqli olmasını qeyd etmək lazımdır. Belə ki, "AZAL Sığorta" halında bazara giriş hüquqi mexanizmlər vasitəsilə yalnız bir şirkətin fəaliyyəti üçün tənzimlənir. "Paşa Sığorta" və "Azərsığorta" halında isə şirkətlərin fəaliyyəti zamanı yalnız iqtisadi metodlardan deyil, həm də qismən kompleks üsullardan istifadə edilmişdir. Beləliklə, araşdırmamız zamanı müəyyən etdik ki, sığorta bazarında rəqabət mühitinin kəmiyyət göstəricisi kimi çıxış edən Herfindal-Hirşman indeksimizin ilkin göstəricisi (801,3) həqiqəti əks etdirmir. Bazara ümumi yanaşmanın bizi yanlış nəticələrə gətirib çıxara biləcəyinin şahidi olduq. Bu baxımdan, yanaşmamızı bir qədər dərinləşdirib bazarı sığorta növləri üzrə seqmentləşdirərək indeksimizi hər bir sığorta növü üzrə hesablaya bilərik. Əldə etdiyimiz nəticələrə baxdığımız zaman "Həyat sığortası" (HHİ=3398 ,5) , "Fərdi qəza və xəstəlik sığortası" (HHİ=3260,1), "Tibbi sığorta” (HHİ=2223,5), "Yüklərin (nəqliyyat) sığortası" (HHİ=3074,1) və "Əmlakın yanğın və digər əlavə risklərdən sığortası" (HHİ=2207,7) bazarlarında "çox yüksək təmərküzləşmiş" bazar, "Hava nəqliyyatı vasitələrinin sığortası" (HHİ=10000), "Hərbi qulluqçuların, dövlət qulluqçularının, məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası" (HHİ=10000) bazarında isə "tam təmərküzləşmiş" və ya inhisarçı bazarın mövcud olduğunu görürük. Yalnız "Avtonəqliyyat vasitələrinin sığortası" (HHİ=1150,8) və "Nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası" (HHİ=1103,8) bazarlarında "təmərküzləşmiş" bazarla qarşılaşmış oluruq.



Cədvəl 4

**Əsas sığorta növləri üzrə Herfindal-Hirşman indeksi**

| | Sığorta növü | Herfindal-Hirşman indeksi |
|---|---|---|
| 1 | Həyat sığortası | 3398,5 |
| 2 | Fərdi qəza və xəstəlik sığortası | 3260,1 |
| 3 | Tibbi sığorta | 2223,5 |
| 4 | Avtonəqliyyat vasitələrinin sığortası | 1150,8 |
| 5 | Hava nəqliyyatı vasitələrinin sığortası | 10000 |
| 6 | Yüklərin (nəqliyyat) sığortası | 3074,1 |
| 7 | Əmlakın yanğın və digər əlavə risklərdən sığortası | 2207,7 |
| İcbari sığorta üzrə | | |
| 8 | Nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 1103,8 |
| 9 | Hərbi qulluqçuların, dövlət qulluqçularının, məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası | 10000 |

Mənbə: cədvəl müəllifin hesablamaları əsasında tərtib edilmişdir.

Əldə etdiyimiz qeyri-iqtisadi zona (Z) bazarın qeyri-iqtisadi təsir əsasında formalaşmış hissəsini göstərir. Bununla belə, bazarda qeyri-iqtisadi zonanın səviyyəsi müxtəlif ola bilər. Beləliklə, bazarda qeyri-iqtisadi zonanın səviyyəsinə görə bazarın 3 növünü fərqləndiririk:

1. Qeyri-iqtisadi inhisarlı bazar
2. Qeyri-iqtisadi rəqabətli bazar
3. Qeyri-iqtisadi təhlükəsiz bazar

Bazarda qeyri-iqtisadi dəstəkli şirkətlər 70%-dən yuxarıdırsa, o zaman bazarımızın yaratdığı qeyri-iqtisadi zona əmsalı qeyri-iqtisadi inhisarlı bazar kimi dəyərləndirilir. Bazarın qeyri-iqtisadi zona əmsalı 20-70% arasında olan bazar qeyri-iqtisadi rəqabətli bazar kimi dəyərləndirilir. Qeyri-iqtisadi zona əmsalının 20%-dən aşağı olduğu bazar isə

qeyri-iqtisadi təhlükəsiz bazar hesab edilir. Bizi yalnız bazarın qeyri-iqtisadi xüsusiyyətləri deyil, onun bazarda iqtisadi rəqabətlə qarşılıqlı əlaqəsi maraqlandırır. Digər tərəfdən, bazarın yalnız qeyri-iqtisadi zona əmsalına görə təhlilini vermək daha çox ümumiləşdirilmiş və fəaliyyət baxımından yanlış nəticələrə gətirib çıxara bilər. Daha səhih təhlil aparmaq üçün bizə bazarın rəqabət səviyyəsi də lazım olacaqdır. Xatırladaq ki, bazarda Herfindal-Hirşman indeksinin göstəricisinə əsasən rəqabət səviyyəsinə görə 3 növ bazar fərqləndirilir:

1. Təmərküzləşməmiş bazar
2. Təmərküzləşmiş bazar
3. Güclü təmərküzləşmiş bazar

Bazarda fəaliyyət göstərən və bazara daxil olmaq istəyən şirkətlər üçün ilkin olaraq hansı bazar tipi ilə qarşılaşdıqlarını müəyyən etmək çox vacibdir, çünki göstərilən bazar tiplərinin hər birinin özünəməxsus cəhətləri, rəqabət mühiti və "oyun qaydaları" mövcuddur.

Dissertasiya işinin sonunda aparılan tədqiqat işi ümumiləşdirilmiş, konkret təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı işləri çap edilmişdir:**

1. **Ш.Г. Абдуллаева**. Анализ и особенности современного состояния инновационного предпринимательства в Азербайджане. AMEA Xəbərləri İqtisadiyat seriyası", № 1-2013, Bakı-2013, 1,0 ç.v.

2. **Ş.H.Abdullayeva.** İntellektual mülkiyyətin idarə edilməsində innovasiyanın rolu. "Əmək və sosial problemlər, 2013 № 1(12), Bakı-2013, 0,6 ç.v.

3. **Ш.Г.Абдуллаева.** Современные особенности инновационного менежмента". "Креативная Экономика" Всероссийский ежемесячный научно-практический журнал. Москва, № 6/2012, 0,9 ç.v.

4. **Ş.H.Abdullayeva.** Müasir şəraitdə innovasiya sisteminin formalaşması və inkişaf problemləri. "AMEA Xəbərləri İqtisadiyat seriyası", № 4-2012, Bakı-2012, 1,2 ç.v.

5. **Ş.H.Abdullayeva.** Azərbaycanda səhiyyə sahəsində innovasiyaların tətbiqinin xüsusiyyətləri və idarə edilməsinin səmərələşdirilməsi."AMEA Xəbərləri İqtisadiyyat seriyası", № 3-2012, Bakı-2012, 0,9 ç.v.



6. **Ş.H.Abdullayeva.** İnnovasiya yönümlü iqtisadi inkişafın nəzəri və metodoloji məsələləri. AR Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elmi Mərkəzi, "Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Xəbərləri", № 2-2012, Bakı-2012, 0,6 ç.v.

7. **Ş.H.Abdullayeva. "**İqtisadiyyatın qloballaşma şəraitində innovasiyaların rolu". 9. Uluslarlarısı Türk Dünyası Sosial Bilimlər Konqresi. 2 cild. Bakı -2011, 0,4 ç.v.

8. **Ş.H.Abdullayeva. "**Qlobal maliyyə böhranı şəraitində innovasiyaların rolu". ADİU, TR Sakariya Universiteti, Türk Dünyası Araşdırmalar Vəqfi, "Qlobal maliyyə böhranı: iqtisadi təhlükəsizliyin Azərbaycan modeli və dünya təcrübəsi" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları (I kitab), 21-22 dekabr 2009, Bakı - 2010, 0,5 ç.v.

9. **Ş.H.Abdullayeva. "**Transport sisteminin və informasiya kommunikasiya texnologiyalarının iqtisadiyyatının qeyri-neft sektoruna təsiri**".** Uluslararası Türk Dünyası Sosial Bilimlər Kongresi. 9-11 Hazıran 2009, Calalabat-Kırgizistan. 0.7 ç.v.

10. **Ş.H.Abdullayeva. "**Türkdilli ölkələrdə innovasiya menecmentinin müasir vəziyyətinin təhlil**".** VIII türk dünyası iqtisadiyyat, elm və mədəniyyət forumunun «İpək yolu XXI əsrdə» mövzusunda beynəlxalq konfransın materialları, Bakı, 4-5 dekabr 2008, Bakı-2009, 0,3 ç.v.

11. **Ş.H.Abdullayeva. "**Sənayedə innovasiyanın idarə edilməsi məsələləri və beynəlxalq təcrübə**".** AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu "Sosial-Siyasi Problemlər" elmi-nəzəri jurnal, №1 (18), Bakı-2008, 0,5 ç.v

12. **Ш.Г.Абдуллаева.** "Модели выбора инновационного проекта".Модернизация системы непрерывного образования. II международная научно-практическая конференция. Материалы конференции 25-27 июня 2010 года, Дербент- 2010. 0,3 ç.v.

13. **Ş.H.Abdullayeva. "**Azərbaycanda azad iqtisadi zonaların yaradılması və innovasiya sisteminin inkişafı**".** AMEA İqtisadiyyat İnstitutu "Milli iqtisadiyyatın problemləri"(məqalələr toplusu) I buraxılış, Bakı-Elm-2007, 0,4 ç.v.

**Шафаг Гусейн кызы Абдуллаева**

**Проблемы усовершенствования управления инновациями**

## Р Е З Ю М Е

Исследовательская работа посвящена определению направления и возможностей усовершенствования управления иноваціями, выявлению существующих проблем и недостатков в этой сфере с учетом специфических особенностей, включая редкие природные ресурсы, производственный и научно-технический потенциал нашей страны. На основе знаний об общих закономерностях и тенденциях развития ведущих развитых стран мира, оценены современное состояние и изучена особенности развития процесса управления инновациями, имеющих научное и практическое значение, задач.

Диссертация состоит из введения, 3 глав, заключения, списка использованной литературы и приложений.

Во введении обосновывается актуальность темы, определяется уровень изученности проблемы, сформулированы цель и задачи, объект и предмет исследования, научная новизна и практическая значимость работы, апробация исследования.

В первой главе исследовательской работы, озаглавленной «Теоретические и методологические основы проблемы управления инновациями» инновации изучены понятие инновационное управление и его особенности, а также диалектическая связь между инновациями и эффективностью управления.

Во второй главе исследования, озаглавленной «Особенности увеличения эффективности управления инновациями» дана классификация организационной структуры инновационного бизнеса, разработаны необходимость и особенности повышения эффективности управления инновациями, изучены проблемы построения национальной инновационной системы.

В третьей главе исследовательской работы, озаглавленной «Направления совершенствования управления инновациями в сфере здравоохранения экономики», исследованы пути оздоровления конкурентной среды в области инновационной деятельности в секторе здравоохранения и приоритеты усовершенствования управления инновациями на рынке медицинского страхования.

В заключении обобщены важные научные и практические результаты исследования.



**Shafag Huseyn gizi Abdullayeva**

**Problems in the improvement of management of innovation**

## RESUME

The research is devoted to solving these with scientific and practical significance, task of identifying trends and opportunities to improve the management innovations, identify existing problems and shortcomings in this area, taking into account the specific features, including a rare natural resources, industrial and scientific potential of our country, based on knowledge about the general patterns and trends of the major developed countries, and to assess the current state and the study of the peculiarities of the process of innovation management.

The thesis consists of an introduction, three chapters, conclusion, list of references and appendices.

In the introduction the urgency of the subject is determined by the level of scrutiny of the problems stated goal and objectives, the object and the subject of research, scientific novelty and practical significance of the work, testing research.

The first chapter of the research work entitled "Theoretical and methodological basis of the problem of innovation management" innovations are shown as an essential condition for sustainable economic development, and studied the concept of innovation management and its features, as well as a dialectical relationship between innovation and performance management.

In the second chapter of the study, entitled "features increase the efficiency of management of innovation," the classification of the organizational structures of business innovation, to develop the necessary features and improve innovation management, the problem of building a national innovation system.

In the third chapter of the research work entitled "ways of improving management of health innovation economy," explored ways of improvement of the competitive environment in the area of innovation in the health sector and improve innovation management priorities on the health insurance market.

In conclusion summarizes the major scientific and practical research results.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**ШАФАГ ГУСЕЙН КЫЗЫ АБДУЛЛАЕВА**

# ПРОБЛЕМЫ УСОВЕРШЕНСТВОВАНИЯ УПРАВЛЕНИЯ ИННОВАЦИЯМИ

**Специальность: 5308.01 – Обшая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертация по присуждению ученой степени доктора философии по экономике

**БАКУ – 2013**

***Kağız formatı 60x84 1/16.***
***Həcmi 1,5 ç.v. Sayı 100.***

-----------------------------------------------------------------------

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***